# Tarını silaha dəyişdi

***"Ata, düşmən qaçır, tezliklə qələbə qazanacağıq..."***

Onun barmaqları mizrab tutmaq, tarın zərif pərdələri üzərində gəzdirmək, əbədiyaşar muğam və təsniflərimizi səsləndirmək üçün yaranmışdı. Elə evdə valideynləri tərəfindən də bu mənada qorunar, əllərinin fiziki işlərdə bərkiməsinə imkan verilməzdi.
Amma dar gündə vətənin müdafiəsinə yetişmək - 30 il işğalda inləyən torpaqları azad etməkdən ötrü özü nəinki tarzən barmaqlarını, bütöv vücudunu əsirgəmədi, canından-qanından keçərək ən ali zirvə olan şəhidliyə yüksəldi.
İsizadələr ailəsi 3 ildən çoxdur ki, Elvinli xatirələrlə yaşayır. Əlamətdar günlərdə hamı bir süfrə başına toplaşanda oxuyan o tar indi şəhidin xatirə guşəsində sükut içindədir. Doğmaları, dostları həmin tanış, məhrəm musiqi sədalarını yalnız audio-video lentlərdən dinləyirlər. Yeganə təsəlliləri isə Zəfər simfoniyamız, Qələbə himnimizdir.

2001-ci il sentyabrın 4-də Ağdam rayonunun Qaradağlı kəndində doğulmuş İsizadə Elvin Azim oğlu Asəf Zeynallı adına musiqi kollecində təhsil alırdı. Sevimli tarını silaha dəyişərək haqq savaşına qoşulan Elvin Füzuli, Xocavənd, Cəbrayıl, Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak edib.
Şəhidin atası Azim Quliyev oğlunun bir qarabağlı kimi Vətən müharibəsində qələbə əzmi ilə döyüşdüyünü deyir: "Elvin 2018-ci ildə kollecə qəbul olundu. 2019-cu ildə hərbi xidmətə getdi. İstəyirdi ki, hərbi xidməti başa vurduqdan sonra təhsilini davam etdirsin. Arzularından biri də Konservatoriyaya qəbul olmaq idi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Qubadlı və Xocavənd istiqamətində gedən döyüşlərə qatıldı. Böyük ruh yüksəkliyi ilə döyüşürdü. Döyüş yoldaşları onun qorxmaz, cəsur əsgər olduğunu, sərrast atəş açdığını bildirirlər. Deyirdi, ata, düşmən qaçır, tezliklə qələbə qazanacağıq. Oktyabrın 26-da Füzuli istiqamətində gedən döyüşlərdə şəhidlik məqamına yüksəldi".
Anası Gülbəniz İsizadə də onun musiqi sahəsində fitri istedadından söhbət açır: "Elvin uşaqlıqdan hamının sevimlisi olub. Çox ağıllı, tərbiyəli, nümunəvi idi. Musiqiyə böyük maraq göstərirdi. Tarzən kimi fitri istedada malik idi. Böyük arzuları vardı. Heyif ki, hər şey yarımçıq qaldı. Bizim üçün çox ağırdır. Amma onunla fəxr edirik. Ucadan uca məqamda, zirvədədir. Allah bütün şəhidlərimizə rəhmət eləsin".
Şəhid Elvin İsizadə Vətən müharibəsində göstərdiyi şücaətə görə ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

"44 günlük Zəfər mücadiləsində həyatlarından keçən şəhidlərin, qazilərin sırasında incəsənət sahəsində çalışanların, təhsil alanların sayı yüzlərlədir. Elvin İsizadə də onlardan biri idi. Sosial şəbəkələrdə şəhidimizin instrumental çalğısında Bəhram Mansurovun məşhur "Qal, sənə qurban!" bəstəsi geniş yayılıb. Gözəl ifadır: "Əgər üz çevirib getsən uzağa, qalmaz aşiqində hal, sənə qurban..." Həqiqi Azərbaycan sevdalıları heç vaxt ondan aralı düşmədilər, əksinə, uzaqdakılar da yaxına gəlib Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Zəngilan təşnəli ürəklərinin yarasına bir məlhəm kimi vətən torpağı qoydular, İsa bulağından, İstisudan, Turşsudan su səpdilər... Və sonda həmin müqəddəs məkanları bağrılarına basıb arzularına, sevgilərinə qovuşdular.

Qurban MƏMMƏDOV,
"Azərbaycan"